# Xeyrəddin Qoca - 65



***Hörmətli Xeyrəddin Qoca!***

*Sizi - tanınmış yazıçı-dramaturqu, publisist və satiriki, ictimai xadimi 65 yaşınızın tamam olması münasibətilə təbrik edirik!*

*Siz 29 yanvar 1950-ci ildə Ağdaş rayonunun Qülbəndə kəndində müəllim ailəsində anadan olmusunuz. 1967-ci ildə rayonun Qəsil kənd orta məktəbini bitirdikdən sonra N.Tusi adına Pedaqoji Universitetə qəbul olunmuş, 1971-ci ildə ali məktəbi bitirmisiniz. 1975-77-ci illərdə Jurnalist Sənətkarlığı İnstitutunda təhsil almısınız. Ordu sıralarında xidməti borcunuzu yerinə yetirdikdən sonra (1971) əmək fəaliyyətinə başlamış və yaradıcılıqla məşğul olmusunuz.*

*45 il əvvəl - ötən əsrin altmışıncı illərinin sonlarında ilk dəfə 1968-ci ildə "Kirpi" jurnalında dərc olunmuş "Hədiyyə" adlı satirik hekayənizlə oxucuların görüşünə gəlmisiniz. Sonralar Azərbaycan mətbuat orqanlarında, xüsusilə "Ədəbiyyat və incəsənət" (indiki "Ədəbiyyat qəzeti") qəzetində müntəzəm olaraq hekayələriniz, bədii yazılarınız dərc olunmağa başlanmışdır. Siz əlinizə qələm alandan bəri cəmiyyətdəki neqativ halları ifşa edən kitablar çap etdirmiş, səhnə əsərləri yaratmısınız. "Filankəslər" (1995), "Hərə öz payını götürsün..." (1998), "Marallar" (2000), Türkiyədə nəşr olunmuş "Bu dünyadan məktublar..." (2002), "Gərək yazam..." (2003), "Pyeslər" (2004), "Bu da belə həyatdır..." (2008), "Biz bizə bənzərik" (2010) adlı kitablarınızı oxucular böyük maraqla qarşılamışlar.*

*Akademik Milli Dram Teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuş "Hərənin öz payı..." (2002) adlı komediyanız sizi istedadlı dramaturq kimi tanıtmışdır. "Qonşulaşma, qohumlaşma, kirvələşmə" adlı komediyanız Azərbaycan Dövlət Televiziyasında ekran həyatı tapmışdır (2004), "Düzü-düz, əyrini-əyri" (2006), "Bu, bizim zamanədir" (2007), "Toy olacaq..." (2008) adlı pyesləriniz Azərbaycan Milli radiosunun efirində səsləndirilmişdir. Heydər Əliyev Sarayında Azərbaycanda ilk dəfə "Bilirəm, səsim xoşunuza gəlməyəcək..." adlı musiqili satira gecəsi keçirmisiniz (2003). C.Cabbarlı adına İrəvan Azərbaycan Dövlət Dram Teatrında "Vəzifə dəlisi" (2014) adlı pyesiniz tamaşaya qoyulmuşdur. Böyük türk satiriki Əziz Nesinin bir sıra əsərlərini dilimizə çevirmisiniz.*

*Siz bədii əsərlər yazmaqla yanaşı, həm də uzun müddət mətbuatda çalışmısınız. Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri Komitəsində (o zaman belə adlanırdı), "Politexnik", "Dan ulduzu", "Mədəniyyət", "Açıq söz", "Mozalan", "Yeni Azərbaycan" qəzetlərində, "Sosialist qanunçuluğu" jurnalında işləmiş, müxbirlikdən baş redaktorluğa qədər yüksəlmisiniz. "Dan ulduzu" və "Yeni Azərbaycan" qəzetlərinin yaradıcısı və ilk baş redaktoru olmusunuz.*

*Siz jurnalistikanın bütün janrlarında respublikamızda və xaricdə çıxan yüzdən artıq müxtəlif adda qəzet-jurnallarda minlərlə yazı dərc etdirmisiniz. Xaricdə və Azərbaycanın televiziya və radio efirində saysız süjet və çıxışlarınız səslənmişdir.*

*Siz Azərbaycan Jurnalistlər Birliyinin (1979) və Yazıçılar Birliyinin (1996) üzvüsünüz.*

*Siz Azərbaycanın ictimai-siyasi həyatında da yaxından iştirak edirsiniz. Ölkəmizin ağır dövründə məşhur "91-lər"dən biri kimi siyasi mübarizəyə qoşulmusunuz. Ulu öndərimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının təşəkkül tapmasında sizin xidmətləriniz olmuşdur. YAP yaranandan indiyədək Siyasi Şuranın üzvüsünüz.*

*1995-ci ildə I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmisiniz.*

*1997-ci ilin dekabrından 2003-cü ilin mart ayına kimi Türkiyə Cümhuriyyətinin İstanbul şəhərində Azərbaycan Respublikasının Baş konsulu vəzifəsində işləmisiniz. Sizə I dərəcəli Fövqəladə və səlahiyyətli elçi rütbəsi verilmişdir.*

*Uzun müddət Moskvada çıxan "Trud" qəzetinin ictimai müxbiri olmuş, qəzetin işində fəal iştirakınıza görə Fəxri fərmanla təltif olunmusunuz (1986). "Qızıl qələm" (1994), "Dan ulduzu" (1995), "Araz" ali ədəbi mükafatı (2001) və Milli kulturoloji mükafat - diplom (2005) almısınız.*

*Mədəniyyət və incəsənət sahələrində böyük xidmətlərinizə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüsünüz (2007).*

*Sizin həyat və yaradıcılığınıza həsr olunmuş "Xeyrəddin Qoca" (foto-kitab, 2000), "Ömür belə keçir..." (2004), "Xeyrəddin Qocanın gülüşü" (2007), "Həyati proseslərin axarında..." (2013) adlı kitablar dərc olunmuşdur. İctimai televiziya haqqınızda "Ömür belə keçir..." adlı film çəkmişdir (2009).*

***Hörmətli Xeyrəddin müəllim!***

*Sizi 65 illik yubileyiniz münasibətilə bir daha təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!*

**Azərbaycan Yazıçılar Birliyi**